İyunun 1-də Ağcabədi rayonu 2, 5 və 11 saylı məktəblərin şagirdləri arasında Uşaqların Beynəlxalq Müdafiə Gününə həsr olunmuş “Biz hüquqlarımızı öyrənirik” mövzusunda bilik yarışması olub.

Tədbir Beynəlxalq Xilasetmə Komitəsinin (BXK) Təhsil Nazirliyi ilə birgə ümumtəhsil məktəblərində reallaşdırdığı İnsan Hüquqlarının tədrisi layihəsi çərçivəsində keçirilib. Onu da qeyd edək ki, İsveç Beynəlxalq İnkişaf Agentliyi (SIDA) tərəfindən maliyyələşdirilən layihəyə əsasən Ağcabədi rayonunda müəllim, şagird və tələbələr üçün insan hüquqları, eləcə də fəal təlim metodologiyaları üzrə mütəmadi olaraq maarifləndirmə aparılır.

Bilik yarışmasında müxtəlif mövzular üzrə plakat yarışı və uşaq hüquqları üzrə sual-cavab sessiyaları keçirilib.

I yerin qalibləri olan Ağcabədi şəhər 5 saylı orta məktəbin şagirdlərinə diplom təqdim olunub, digər məktəblər isə iştirakçı diplomları ilə təltif edilib. Eyni zamanda tədbir iştirakçısı olan məktəblərə hədiyyələr verilib.